ними закріплені. Адже неправомірно було б вимагати від органів влади виконання ними певних дій без наявності відповідної фінансової бази.

Разом з тим навіть чітке дотримання принципів фінансової децентралізації не гарантує бюджетних диспропорцій на регіональному рівні. Для усунення подібних диспропорцій концепція фінансової децентралізації пропонує урядам країн використовувати так звані рівноважні гранти (трансферти). Як приклад можна навести досвід В'єтнаму, де в найбідніших провінціях податкові надходження на душу населення становлять лише 9% відповідного показника в багатих провінціях, 59% витрат бідних провінцій — це трансфертні платежі. У великих краънах, таких як-Австралії, Канаді та Німеччині – існує також система рівноважних грантів, яка гарантує мінімальний рівень необхідних бюджетних витрат на душу населення незалежно від ффінансових показників регіону. Аналогічні підходи для досягнення горизонтальної справедливості використовуються і в інших країнах, де існує значна диференціація в рівнях фінансування адміністративно-територіальних одиниць. Єдина проблема, пов'язана з використанням системи рівноважних грантів, полягає в тому, що ця система створює передумови для спотворення економічних стимулів низових органів влади. Зокрема, маючи певні гарантовані доходи від держави у вигляді трансфертів, регіональні та місцеві органи влади втрачають стимули до ефективної фінансової політики на власній території. Більш того, вони стають зацікавленими в недооцінці своєї податкової бази або навіть навмисному приховуванні свого податкового потенціалу з метою максимізації фінансової допомоги з боку держави.

Таким чином, впровадження політики фінансової децентралізації має стати найважливішим чинником протидії зовнішнім викликам, стабілізації соціально-економічної ситуації та виходу регіонів країни зі стану фінансової нестійкості. Грамотна політика фінансової децентралізації сприятиме подоланню протиріч між різними рівнями влади по вертикалі, організації ефективних взаємовідносин між державою та органами місцевої влади. Це дозволить здійснити комплекс заходів політичного, правового та організаційно-управлінського характеру, створити нову ефективну систему міжбюджетних відносин і значно знизити залежність формування бюджетних ресурсів від центральних органів влади.

## AZƏRBAYCAN GÜCLÜ İQTİSADİ POTENSİALI OLAN QALİB ÖLKƏDİR!

*Bayramova Şəfiqə Mərdan qızı*
*Elmi rəhbər: Namazova Aynur Məhəmməd qızı*
*Mingəçevir Dövlət Universitreti*

Ötən əsrin 90-cı illərin əvvəllərində ağır problemlər içərisində boğulan ölkəmiz dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi altında dirçəlməyə başladı, bütün sferalarda çevik islahatlar aparıldı, sabitlik təmin edildi, dövlət proqramları qəbul olundu, bazar iqtisadiyyatı formalaşdı, mülkiyyət münasibətlərində köklü

dəyişikliklər edildi, ölkənin inkişaf üçün vacib olan neft strategiyası gerçəkləşdirildi, davamlı iqtisadi artımın əsası qoyuldu, sosial rifahın yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. Bütün bunlar isə gələcək iqtisadi uğurların möhkəm təməllərini formalaşdırmış oldu.

Cənab İlham Əliyev birinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilərkən beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam və şərtsiz bərpasını öz siyasi proqramının ali məqsədi olaraq bəyan etmişdi və buna da nail oldu.

Ölkəmiz Avropanın enerji təminatında strateji və etibarlı tərəfdaşa çevrilib. 2006-cı ildə istismara verilən Bakı-Tbilisi-Ceyhan boru kəməri, 2018-ci ildə rəsmi açılışı olan "Cənub qaz dəhlizi" bu baxımdan xüsusi qeyd edilməlidir. Enerji əməkdaşlığının yeni mərhələsi üçün 2022-ci ildə Avropa və digər tərəfdaş ölkələrlə energetika sahəsində strateji əməkdaşlığa dair Memorandum və Saziş imzalanıb.

Azərbaycan beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb.

2002-ci ildə iqtisadiyyata yönəldilən investisiyaların həcmi 2,8 milyard ABŞ dolları idisə, 2022-ci il üzrə bu rəqəm 17,1 milyard ABŞ dolları təşkil edib.

Ölkəmizin ticarət tərəfdaşlarının sayı artaraq 2022-ci ildə 55 ölkədən 185-ə çatıb. Ötən il Azərbaycandan 110-dan çox ölkəyə qeyri-neft məhsulları ixrac olunub.

Beynəlxalq sərgi və ticarət yarmarkalarında ölkə sahibkarlarının iştirakına və "Made in Azerbaijan" brendinin xaricdə tanıdılmasına dəstək və sair tədbirlər də ixracın artımını stimullaşdırır.

Hazırda xarici ölkələrdə Azərbaycan məhsullarının və mətbəxinin təqdim olunduğu 11 ticarət evimiz fəaliyyət göstərir.

Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik İndeksi" hesabatında ölkəmiz 11 pillə irəliləyərək 141 ölkə arasında 58-ci mövqedə qərarlaşıb. Hesabata əsasən, Azərbaycan 12 indikatordan 8-i üzrə irəliləyərək MDB ölkələri arasında lider mövqelər sırasında yer alıb, həmçinin Cənubi Qafqaz regionunda birinci olub. Bu hesabatda "biznesin dinamikliyi" üzrə Azərbaycan 8 pillə irəliləyərək dünya sıralamasında 23-cü yerdə qərarlaşıb ki, bununla ölkəmizin biznes mühitinin inkişafı istiqamətində apardığı intensiv islahatlar bir daha təsdiqini tapır.

Sənayenin inkişafına yönəlmiş əhəmiyyətli mexanizmlərdən biri dövlət başçısının təşəbbüsü ilə sənaye zonalarının - sənaye parkları və məhəllələrinin yaradılmasıdır. Ölkədə 7 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları, 5 sənaye məhəlləsi - Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələri yaradılıb.

Sənaye zonalarında ümumilikdə 10,23 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 3,35 milyard manatlıq hissəsi ixrac olunub. 2023-cü ilin birinci yarısında sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 16,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə 20,7 faiz (470,6 milyon manat) olub. Sənaye zonalarında istehsal edilən məhsullar 50-dən artıq ölkəyə ixrac olunur.

Azad edilmiş torpaqlarımızın dirçəlişi və reinteqrasiyası iqtisadi potensialımızın artmasına geniş imkanlar vəd edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla

icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 2021-ci ildən bu günədək 12 milyard manata yaxın vəsait ayrılıb.

Bu gün yeni strateji hədəflərə nail olmaq üçün bütün səmərəli artım mənbələrindən istifadəni dəyərləndirən Azərbaycan yeni reallıqlar şəraitində qalib və güclü iqtisadi potensialı olan dövlət kimi dünyada mövqelərini daim möhkəmləndirir. Cənab Prezidentin müdrik və uzaqgörən siyasəti bundan sonra da onilliklər ərzində xalqımızın rifahına böyük töhfə verəcəkdir.

***Ədəbiyyat:***

1. Azərbaycan: güclü iqtisadi potensialı olan qalib dövlət. URL: https://vergiler.az/news/article/26431.html

## MÜASİR SAHİBKARLIQ SISTEMİNDƏ XARİCİ İNVESTİSİYALARIN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASININ TƏŞKİLATİ-İQTİSADİ AMİLLƏRİ

*Əliyeva Ləman Cəfərqulu qızı*
*Elmi rəhbər: Rəhimova Məlahət Firqət qızı*
*Mingəçevir Dövlət Universiteti*

İnvestisiyalar mühüm struktur əmələgətirmə vəzifəsini yerinə yetirir. İnvestisiya siyasəti iqtisadiyyatın perspektiv strukturunun formalaşmasında aparıcı rola malikdir. Kapital qoyuluşlarının təmərküzləşməsi, müxtəlif maliyyələşdirmə mənbələrinin səfərbər edilərək daha əhəmiyyətli və təxirəsalınmaz regional problemlərin həllinə yönəldilməsi struktur-investisiya siyasətinin əsas elementlərindəndir.

Xarici investorlara münasibət çoxsaylı və müxtəlif səviyyəli amillərin təsiri altında formalaşır. Lakin dünyada hazırki iqtisadi reallıq inteqrativ əlaqələrin xüsusilə kapital axını baxımından əlaqələrin intensivləşdirilməsinin əlverişliliyi haqqında arqumentlərə malikdir. Belə ki, xarici şirkətlərin iştirakı ölkəyə ən müasir texnologiyanı və müvafiq idarəetmə vərdişlərini gətirir. Bu, xarici bazara çıxmağı da asanlaşdırır, məşğulluğu artırır və yerli istehsalın inkişafına səbəb olur.

Xarici investisiyaların cəlb edilməsinin başlıca şərti investisiya mühitinin yaxşılaşdırılmasıdırsa, bu prosesin təmin olunmasının əsas amili hüquqi bazanın möhkəmləndirilməsidir. Bu zaman-hüquqi normalarda nəzərdə tutulan dəyişikliklər haqqında sahibkarların qabaqcadan məlumatlandırılması və investorların fəaliyyətinə ekoloji reqlament qoyulması məsələləri diqqət mərkəzində olmalıdır. Artıq sirr deyildir ki, xarici investorların ekoloji reqlamentlərdəki boşluqlardan sui-istifadə etməsi nadir hal deyildir. Əlbəttə nəzərə almaq lazımdır ki, xarici investisiyalaşdırma münasibətlərinin özünəməxsusluğu bu münasibətlərə hüquqi vasitələrin böyük qismini, yəni həm milli hüquq, həm də beynəlxalq hüquq tənzimlənməsini, başqa sözlə, hüququn iki sisteminin-milli və beynəlxalq hüququn tətbiqini zəruri edir.

İnvestisiya monitorinqinin milli sisteminin yaradılması əlverişli investisiya mühitinin təminatında az rol oynamır. Monitorinq investisiya fəaliyyətində